Ulduz.- 2019.- oktyabr



# Blez PASKAL:

Qəlbin məntiqə sığmayan apayrı
bir məntiqi var.

***

Dünyaya gəlişimin səbəbini bilmədim; yaşadım, necə yaşamaq gərək olduğunu bilmədim; indi ölüb gedirəm, yenə niyəsini bilmirəm.

***

Ağıla qarşı çıxa biləcək yeganə
qüvvət duyğudur.

***

Biz həqiqəti tək bir ağlımızla deyil, həm də ürəyimizlə dərk edirik; ürəyimizdir bizə hər şeyin başlanğıcını dərk eləməkdə kömək göstərən.

***

Bütün ləyaqətimiz – düşüncələrimizdədir.

***

Bütün murdarlıqların mənbəyi hərəkətsizlikdir.

***

Danışın hamı kimi, ancaq özünüz kimi düşünün.

***

Fəlsəfəni dolamaq – əsl filosofluq eləmək də bax elə buna deyərlər.

***

İnsan ağlıyla deyil, könlüylə dərk edir Allahı. Ağlınla yox, ürəyinlə Allahı hiss eləyə bilmək – iman bunun özüdür ki var.

***

Mən uzun məktub yazdım, çünki qısa yazmağa vaxtım yox idi.

***

Tanrıya inamdan başqa heç nə içərimizdəki yanğını, ruhumuzdakı təşnəni söndürə bilməz.

***

Vicdan – malik olduğumuz ən yaxşı kitabdır, yoldan azmamaqçün ona tez-tez baxmaq gərək.

***

Yaşamaq çətinləşəndə əxlaq da pozulur.